**Fateme Əbdi**

## Saxladım

Mən fəraqın dağını könlümdə mehman saxladım
O yalan ilqarını sinəmdə pinhan saxladım

Yıxdığın sevgim evin söz korxusundan tikmədim
And ola göz yaşıma bu mülkü viran saxladım

Xəstə bu cismim müzəyyəndir cəfa peykanına
Səndən ötrü ölmədim bu canı qurban saxladım

Bil şəb-i vəslın mənə afzəldi leyl-i qədridən
Həsrətindən yatmadım başımda Quran saxladım

Bəlkə bir gün rəhmə gəldin bir də döndün könlümə
Bir gümandan ötrü mən qurbanına can saxladım

Ol məbada gündə bəlkə istədin məndən şərab
Olmasın şərməndə camım könlümü qan saxladım

Xalıq'ım şahiddi ki biganə eşqə uymadım
Mən *Könül* tək sinəmi dərdinlə şan şan saxladım